# XARƏZMŞAHLAR – CƏLALƏDDİN MƏNQUBERDİ

*(1199, Xarəzm – 1231, Kiçik Asiya)*

Xarəzmşahların tarixi şəxsiyyəti və sonuncu hökmdarı olan Cəlaləddin Mənquberdi 1199-cu ildə Xarəzmdə anadan olmuşdur. O, Əlaəddin Məhəmmədin böyük övladıdır. Anası isə hind cariyəsi Ayçiçək xatundur.

O, 15 avqust 1231-ci ildə Kiçik Asiyada öldürülmüşdür.

Cəlaləddin Xarəzmşahın adı mənbələrdə "Manqburnu", bəzən də "Məngü-Bərti" şəklində keçir. Manqburnu qədim türkcədə "böyük burunlu" deməkdir. Məngü-Bərti isə "əbədi qurd" mənasına gəlir. Bu iki ad arasında mənbələrdə yer alan fərqin Cəlaləddinin adının tam oxunmamasından irəli gəlməkdədir. Həmçinin, "manq" türklərdə boy adı mənasını da verməkdədir.

Cəlaləddin Mənguberdi atasının zamanında, Qəznə, Herat, Qarcistan və Sicistana məlik olaraq göndərilmiş, ancaq sultan Məhəmməd daha sonra onu öz yanına almış və onun yerinə Kərbər Məliki uyğun görmüşdür. Ölümündən bir müddət əvvəl Məhəmməd, Terkən xatunun sözləri ilə, anası qanqlı qadın olan Azlaq şahı vəliəhd təyin etdirmiş və ona Xarəzm, Xorasan, Mazandaran kimi mühüm əyalətləri vermişdi.

Azlaq şahdan daha qabiliyyətli olan və dövlət idarəetməsini anlayan Cəlaləddinlə onun qardaşı Rüknəddin Gursancdının yox, qanqlı qadının övladı Azlaqın vəliəhd təyin edilməsi Terkə xatunun dövlətdə olan iqtidarının göstəricisidir.

Monqolların Xarəzmşahlar dövlətinə olan yürüşləri ərəfəsində Əlaəddin Xarəzmşah, Xəzər dənizində Abaskun adasına sığınmışdı. Bu vaxt Terkə xatunu da Monqollar əsir alınca, Cəlaləddinin vəliəhdliyində qarşındakı əngəl ortadan qalxdı. Atası Əlaəddin burada həyat yoldaşı, övladları Ağşah və Azlaqın yanında Cəlaləddini sultan elan edərək öz qılıncı ilə tacını ona verdi. Bir müddət sonra Əlaəddin Məhəmməd Xarəzmşah vəfat etdi. Monqol hücumlarından qaçan Cəlaləddin 1225-ci ildə Azərbaycana yürüş təşkil edir. O əvvəlcə Marağanı tutur, daha sonra isə Təbrizə hücum edir. Bu zaman Təbrizdə olan Atabək Özbək qaçaraq Əlincə qalasında gizlənir və bir neçə gün sonra orda öldü. Beləliklə Eldənizlər dövləti süqut edir. Şirvanşahlar isə Cəlaləddinin hakimiyyətini qəbul edirlər. Cəlaləddinin qoşunları Arazı keçərək sıra ilə Gəncə, Bərdə və Şəmkiri işğal etdi. Ələ keçirilən bütün şəhərlər talanır və əhalinin üzərinə ağır vergilər qoyulurdu. Bu cür şəraitdə yaşamaqdan yorulan yerli əhali Cəlaləddinə qarşı üsyan edirdilər. Bunlardan ən güclüsü 1230-cu ildə Bəndərin rəhbərlik etdiyi Gəncə qiyamı idi. Üsyan amansızlıqla yatırıldı. Ancaq Xarəzmşahın hakimiyyətini sarsılda bildi.

Haqqında Maqsud Şeyxzadə "Cəlaləddin Mənquberdi" beş pərdəli səkkiz şəkilli faciə əsəri yazmışdır.